

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 110 (24.247)

21 iyun 2023-cü il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 30 qəpik


## Bəxtiyar Məmmədov Naxçıvan Muxtar Respublikasının Baş nazirinin müavini təyin edilib

Naxçıvan Muxtar Respublikası Baş nazirinə müavin təyin edilib.

Bu vəzifəyə Bəxtiyar İbrahim oğlu Məmmədov gətirilib.

Bəxtiyar Məmmədov bundan əvvəl SOCAR-ın Neft Emalı Zavodunun direktoru vəzifəsində çalışıb.

O, 1971-ci ildə Naxçıvan şəhərində anadan olub.

Bəxtiyar Məmmədov kollektivə dünən təqdim edilib.

**"Şərq qapısı"**

## Naxçıvan Muxtar Respublikasında istehsal olunan məhsulların istifadəsinin təşviqi mühüm iqtisadi prioritetlərdəndir



Ölkəmizin ərazi bütövlüyünün təmin olunması nəticəsində Naxçıvan Muxtar Respublikası ilə nəqliyyat-kommunikasiya xətlərinin bərpası və bu istiqamətdə tranzit daşımaların həyata keçirilməsi üçün perspektiv imkanlar yaranmışdır. İşğaldan azad edilmiş ərazilərdə dayanıqlı məskunlaşma, iqtisadi fəaliyyətin canlanması və nəqliyyat-logistika imkanlarından istifadə regional iqtisadi-ticarət əlaqələrinin də genişləndirilməsinə xidmət edir.

İşğaldan azad olunmuş ərazilərdə logistika mərkəzinin, müxtəlif xidmət və innovativ sənaye sahələrinin, o cümlədən tikinti materialları istehsalı müəssisələrinin yaradılması həmin rayonların da bərpasına hədəflənmiş iqtisadi strategiyadır.

Bu iqtisadi siyasətin davamı olaraq Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2021-ci il 4 oktyabr tarixli Fərmanına əsasən Cəbrayıl rayonunda yaradılacaq "Araz Vadisi İqtisadi Zonası" Sənaye parkı 200 hektar ərazini əhatə edir. Ərazi kənd təsərrüfatı məhsullarının emalı, sənaye, sosial və texniki zonalara bölünəcək. Burada logistika və ticarət mərkəzi, anbar kompleksləri, topdan və pərakəndə satış obyektləri və digər sahələri əhatə edən məntəqələrin yaradılması planlaşdırılır. Sənaye parkında tikinti üçün üzlük və izolyasiya materialları, müxtəlif qatqı maddələri, metal konstruksiya istehsalı müəssisələrinin təşkili nəzərdə tutulur. Parkın ərazisində, həmçinin kənd təsərrüfatı məhsullarının qablaşdırılması, meyvə-tərəvəz konservləri, süd və ət məhsulları istehsalı və emalı, şərab, yem, gübrə istehsalı, ipəkçilik müəssisələrinin, soyuducu kameraların qurulması, kiçik istehsal və xidmət sahələrinin yaradılması planlaşdırılır.

Digər mühüm bir fakt isə Cəbrayılda yaradılacaq "Araz Vadisi İqtisadi Zonası" Sənaye parkında Naxçıvan sahibkarlarının da fəaliyyətinin nəzərdə tutulmasıdır. Bu barədə məlumatı Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri Tapdıq Əliyev bu günlərdə muxtar respublikada fəaliyyət göstərən sahibkarlarla görüşü zamanı açıqlayıb. İqtisadiyyat naziri işğaldan azad edilmiş ərazilərdə həyata keçiriləcək layihələrdə Naxçıvan Muxtar Respublikasında istehsal olunan məhsulların istifadəsinin təşviqinin dövlətin iqtisadi siyasətində mühüm məsələ kimi diqqətdə saxlanıldığını və bunun əhəmiyyətini vurğulayıb.

Qeyd edək ki, Sənaye parkında muxtar respublika sahibkarlarının logistik fəaliyyəti üçün də 14 hektar sahə müəyyənləşdirilib. Ərazidə Naxçıvan Muxtar Respublikası Sahibkarlar Konfederasiyasının vasitəsilə logistik anbarlar yaradılacaq. İlkin vaxtlarda parkda, əsasən, tikinti materiallarının satışı, sonrakı mərhələlərdə isə digər sahələr üzrə depoların tikintisi nəzərdə tutulub.

"Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda bir sıra mühüm icrasının nəzərdə tutulması bunu deməyə əsas verir ki, gələcəkdə Naxçıvanda da böyük iqtisadi layihələr reallaşdırılacaq, investisiya mühiti canlanacaq, yeni iş yerləri açılacaq və nəticədə, sosial-iqtisadi inkişaf tempi və məşğulluq səviyyəsi daha da artacaq. Eyni zamanda yaxın vaxtlarda muxtar respublika ərazisində yeni Sənaye parkının da tikintisi nəzərdə tutulur ki, digər sənaye parklarında olduğu kimi, burada da sahibkarlar və investorlar üçün yüksək güzəştlər tətbiq olunacaq.

**Xəbərlər şöbəsi**

## Test imtahanları keçirilir

Naxçıvan Muxtar Respublikasında dövlət idarəçiliyi sahəsində aparılan islahatların əsas istiqamətlərindən biri də müasir tələblərə cavab verən kadr siyasətinin həyata keçirilməsi, dövlət orqanlarının peşəkar kadrlarla komplektləşdirilməsidir. Buna uyğun olaraq da Naxçıvan Muxtar Respublikası Dövlət İmtahan Mərkəzi tərəfindən dövlət orqanlarında inzibati vəzifələrin altıncı-yeddinci təsnifatı üzrə vakant dövlət qulluğu vəzifələrinin tutulması üçün elan olunmuş müsabiqənin test mərhələsinə start verilib.

Müsabiqəyə çıxarılmış 52 vakant vəzifənin tutulması üçün 293 müraciət qeydə alınıb. Müraciət edənlərin daha çox sənəd təqdim etdiyi dövlət orqanları sırasında Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi birinci pillədə qərarlaşıb – 103 namizəd. Daha çox müraciətin qeydə alındığı digər dövlət orqanı isə Maliyyə Nazirliyidir ki, burada müvafiq vəzifələrin tutulması üçün 53 namizəd qeydiyyatdan keçib. Ən sıx müsabiqə vəziyyətinin yarandığı dövlət orqanları isə Ekologiya və Təbii Sərvətlər və İqtisadiyyat nazirlikləridir. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin təqdim etdiyi Ətraf mühit və təbii sərvətlərdən istifadəyə dövlət nəzarəti şöbəsi Kəngərli rayonu üzrə məsləhətçi vəzifəsi üzrə 83, İqtisadiyyat Nazirliyinin təqdim etdiyi İqtisadi təhlil və proqnozlaşdırma şöbəsində İnfrastruktur, analitika və icmal sektoru aparıcı məsləhətçi vəzifəsinin tutulması üçün isə 51 namizəd qeydiyyatdan keçib.

Test imtahanlarının nəticələri Dövlət İmtahan Mərkəzinin rəsmi internet portalında *(www.ndim.gov.az)* yerləşdirilir. Test imtahanlarında müvafiq keçid balını toplamış namizədlər müsahibə mərhələsində iştirak etmək hüququ qazanacaqdır.

***Naxçıvan Muxtar Respublikası***
***Dövlət İmtahan Mərkəzinin mətbuat xidməti***



*2023-cü il "Heydər Əliyev İli"dir*

## Ümummilli Lider Heydər Əliyev Naxçıvan arxeologiyasının inkişafında müstəsna rola malik dahi şəxsiyyətdir

*Bəşər tarixinin ən qədim, xüsusən yazıya qədərki tarixinin öyrənilməsində arxeologiya elmi mühüm yer tutur. Qədim maddi mədəniyyət nümunələri əsasında insanların meydana gəlməsi və inkişaf etməsini öyrənən arxeologiya Azərbaycan milli tarix elminin çox mühüm sahəsidir. Naxçıvanda onun formalaşması prosesi XX əsrin 20-ci illərindən sonra başlanmışdır.*

1969-cu ildə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin siyasi hakimiyyətə gəlməsi ilə əlaqədar olaraq arxeoloji, tarixi və memarlıq abidələrimizin elmi tədqiqi üçün əlverişli şərait yaradılmışdır. Ulu Öndər Azərbaycanda, onun ayrılmaz tərkib hissəsi olan Naxçıvanda bu elmin inkişafı üçün misilsiz işlər görmüşdür. İlk növbədə, 1970-ci ildən başlayaraq azərbaycanlı arxeoloq gənclərin Moskva və Leninqrad şəhərlərində (indiki Sankt-Peterburq) yüksək səviyyədə mutəxəssis kimi yetişmələri üçün həmin ölkələrdəki aspiranturalara qəbul olunmaları və təcrübə keçmələri prosesinə başlanılıb. 1972-ci ildə Ulu Öndərin şəxsi təşəbbüsü ilə Azərbaycan Elmlər Akademiyası Rəyasət Heyəti Naxçıvan Regional Elm Mərkəzinin yaradılması haqqında Qərar qəbul etmişdir. Bu zaman Ümummilli Liderimiz ***"Bölgənin təbii xammal ehtiyatlarının kompleks şəkildə öyrənilməsi və səmərəli istifadə olunmasının elmi əsaslarının işlənib hazırlanması, muxtar respublikanın sosial-iqtisadi inkişafını, tarixini, arxeoloji, epiqrafik, etnoqrafik və folklor abidələrini öyrənməyi"*** Naxçıvan Regional Elm Mərkəzinin əsas fəaliyyət istiqamətləri olduğunu müəyyənləşdiribdir. Bu mərkəzdə fəaliyyət göstərən Arxeologiya və etnoqrafiya şöbəsinin əməkdaşları tərəfindən Naxçıvanın etnoqrafiyası, epiqrafiyası ilə yanaşı, arxeologiya sahəsində də uğurlu elmi tədqiqatlar aparılıbdır.

1974-cü ildə yerli arxeoloji kadrların olması nəzərə alınaraq elmi-tədqiqat işlərinin Azərbaycanda keyfiyyətini artırmaq məqsədilə Azərbaycan Elmlər Akademiyası Tarix İnstitutu nəzdində Arxeologiya və Etnoqrafiya Sektorunun təşkil olunması ölkəmizin digər bölgələri kimi, Naxçıvan Muxtar Respublikasında da arxeologiyanın inkişafına böyük təsir göstərmişdir. 1975-ci ildən başlayaraq Şamaxı, Qəbələ, Şəki, Quba, Gəncə və digər bölgələrdə olduğu kimi, Naxçıvanda da, arxeoloji bazalar təşkil olunmuşdur. 1981-ci ilin sentyabr ayında Ulu Öndər Heydər Əliyevin şəxsi təşəbbüsü ilə Azərbaycan KP MK və Nazirlər Soveti "Azərbaycan SSR-də memarlıq və arxeoloji abidələrin qorunması, bərpası və istifadəsinin yaxşılaşdırılması tədbirləri haqqında" Qərarı qəbul etmişdir. Bu qərar Azərbaycan Respublikasının bütün bölgələrində olduğu kimi, Naxçıvanda da arxeologiyanın inkişafında mühüm əhəmiyyət daşıyır. Qərardan sonra hər il ardıcıl olaraq respublikamızın bütün bölgələri kimi, Naxçıvan Muxtar Respublikasına da arxeoloji ekspedisiyalar təşkil olunmuş, abidələrimiz öyrənilmişdir. Ümummilli Lider Heydər Əliyevin XX əsrin 70-80-ci illərindəki siyasi hakimiyyəti dövründə Naxçıvan arxeologiyası inkişaf etmiş, arxeoloji tədqiqatların əhatə dairəsi və əhəmiyyəti daha da artmışdır. Bu dövrdə Qazma, Xaraba Gilan, Sumbatan, Haqqıxlıq, Şahtaxtı, Ovçular təpəsi, Xələc, Ərəbyengicə, Qızılburun, Damlama, Sarıdərə, I Maxta və digər abidələrdə arxeoloji tədqiqatlar aparılmışdır.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 1993-cü ildən başlayan siyasi hakimiyyətinin ikinci dövründə arxeologiyanın inkişafına xüsusi fikir verilmişdir. Ulu Öndərin şəxsi təşəbbüsü və rəhbərliyi ilə Azərbaycan Respublikası Nazirlər Kabineti 1993-cü il iyulun 8-də xüsusi Qərar qəbul etmişdir. Qərara əsasən Azərbaycan Elmlər Akademiyası Tarix İnstitutu nəzdində Arxeologiya və Etnoqrafiya Sektoru bazasında Arxeologiya və Etnoqrafiya İnstitutu təşkil olunaraq Azərbaycanın digər bölgələri kimi, Naxçıvan Muxtar Respublikasında da arxeologiya elminin inkişafı üçün əlverişli şərait yaradılmış, bu sahədə daha geniş və beynəlxalq miqyasda tədqiqatlar aparılmışdır. 2001-2002-ci illərdə Ulu Öndərin tövsiyəsi ilə kompleks şəkildə Naxçıvan-Gəmiqaya ekspedisiyası təşkil olunmuşdur. 2002-ci il 7 avqust tarixdə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev tərəfindən "Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin təsis edilməsi haqqında" Sərəncam imzalanmışdır. Ulu Öndər 12 avqust 2002-ci ildə Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin yaradılması ilə bağlı keçirilən müşavirədə cıxış edərək Naxçıvanın qədim və zəngin tarixinin öyrənilməsi ilə bağlı bir çox mühüm tapşırıqlar vermişdir. Ümummilli Lider demişdir: ***"Naxçıvanın qədim, zəngin tarixi Azərbaycan tarixinin çox parlaq səhifələrindəndir. Əgər Azərbaycanın tarixi haqqında, ümumiyyətlə, bir çox işlər görülübsə, Naxçıvanın tarixi haqqında, qədim tarixi haqqında və Naxçıvanın bir diyar kimi öyrənilməsi həm təbiətinin, həm adət-ənənələrinin, etnoqrafiyasının öyrənilməsi barədə çox az iş görülübdür".***

Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin yaradılması Naxçıvanda arxeologiyanın inkişafında müstəsna yer tutur. Bölmənin nəzdində fəaliyyət göstərən Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun Qədim dövr arxeologiyası, Antik və orta əsrlər arxeologiyası, Arxeoloji xidmət şöbələrində Naxçıvanda arxeologiyanın hərtərəfli inkişafı üçün dövlət tərəfindən hər cür əlverişli şərait yaradılmışdır. Naxçıvan Muxtar Respublikasının ərazisindəki tarix və mədəniyyət abidələri pasportlaşdırılmış, Naxçıvan Abidələri Ensiklopediyası nəşr olunmuşdur. Eyni zamanda Muxtar Respublikamızdakı Şahtaxtı, Xaraba Gilan, Ovçular təpəsi, Oğlanqala, I Maxta Kültəpəsi, Ərəbyengicə, Xələc, I Kültəpə, Meydantəpə, Qazma mağarası, Rəsul dərəsi və digər abidələrdə genişmiqyaslı, sistemli arxeoloji tədqiqatlar aparılmışdır. Aparılan arxeoloji tədqiqatların gedişində Naxçıvandakı arxeoloji abidələrin dünya abidələri arasında özünəməxsus yer tutduğu, bu bölgənin erkən əkinçilik, Kür-Araz, Boyalı qablar, şəhərsalma mədəniyyətlərinin əsas mərkəzlərindən biri olduğu sübut edilmişdir. Hazırda Ümummilli Liderimizin siyasi kursunun layiqli davamçısı olan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən bu sahəyə yüksək diqqət və qayğı göstərilir. Naxçıvanın qədim dövr tarixini, maddi və mənəvi mədəniyyətini öyrənmək istiqamətində Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsində sistemli tədqiqatlar aparılır.

*Ölkə Prezidenti cənab İlham Əliyevin 2023-cü il 5 iyun tarixli Sərəncamla imzaladığı "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda Naxçıvan Muxtar Respublikasının bəzi tarixi-memarlıq abidələrinin UNESCO-nun maddi mədəni irs nümunələri üzrə əsas siyahısına salınması üçün iş aparılması kimi zəruri əhəmiyyətli məsələnin də əksini tapması diyarımızın qədim və zəngin tarixinin tədqiqi və təbliği istiqamətində yeni vəzifələr ortaya qoyur. AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutu da fəaliyyətini bu mühüm vəzifələrin uğurlu icrası istiqamətində quracaq.*

**Toğrul XƏLİLOV**
***tarix üzrə fəlsəfə doktoru, dosent***



# Naxçıvan Dövlət Universitetinin dünya təhsilinə inteqrasiyası istiqamətində uğurlu addımlar atılır

*Naxçıvan Dövlət Universiteti ölkənin ən nüfuzlu, qabaqcıl təhsil ənənələrinə malik tədris ocaqlarındandır. Universitetin müasir inkişaf mərhələsi, fəaliyyət istiqamətləri, yeni infrastrukturun qurulması dövlətimizin bu sahəyə göstərdiyi diqqətin bariz nümunəsidir. Dövlətimiz tərəfindən göstərilən diqqət, düzgün təhsil strategiyası və inkişaf proqramının tətbiqi sayəsində ali təhsil ocağı ildən-ilə yeni-yeni uğurlara imza atıb, keyfiyyət göstəriciləri ilə ölkə universitetləri arasında ilk sıralarda öz yerini alır. Naxçıvan Dövlət Universiteti bu gün həm də təhsil alan əcnəbi tələbələrin sayına görə də liderdir. Təsadüfi deyil ki, bu il Naxçıvan Dövlət Universiteti "Times Higher Education" versiyası əsasında aparılan beynəlxalq reytinq cədvəlində dünyanın ən yaxşı universitetləri siyahısında yer alıb. Şübhəsizdir ki, sadalanan bütün uğurlar ali təhsil müəssisəsinin daim inkişafda olduğunun sübutudur.*

Bu gün dünyada ölkələrarası iqtisadi-mədəni əməkdaşlığın genişləndirilməsi üçün ümumi kommunikasiya vasitəsi olan ingilis dilindən geniş istifadə edilir. Buna yaranan başlıca zərurət müasir dünya elm və təhsilinə inteqrasiya, texnologiyanın inkişafıdırsa, digər bir zərurət beynəlxalq diplomatik, biznes və turizm əlaqələrində bu dilin ortaq istifadə olunmasıdır. Müasir dövrün



tələblərinə əsasən sahib olduğu ixtisasa görə hər bir mütəxəssis ona lazım olan səviyyədə ingilis dilini mənimsəməklə siyasət, iqtisadiyyat, menecment, beynəlxalq hüquq, beynəlxalq mühasibat, bank, sığorta, tibb, turizm, jurnalistika və digər sahələrdə sərbəst olaraq dünyaya çıxış imkanı qazanır. Odur ki, ingilis dilinə sahib olan mütəxəssis yetişdirilməsi bütün dünyada olduğu kimi, ölkəmizdə də zərurətə çevrilib. Təsadüfi deyil ki, magistratura və doktorantura pillələrində dərəcə ala bilmək üçün xarici dildən imtahan vermək mütləq mərhələ kimi qarşıya qoyulub. Naxçıvan Dövlət Universitetində ali təhsilin dünyaya inteqrasiyası istiqamətində qazanılan uğurların başlıca səbəblərindən biri kimi xarici dillərin tədrisinə dövlət qayğısını göstərmək olar. Bu baxımdan universitetin gələcək strateji hədəfləri kimi beynəlxalq rəqabətlilik layihələrində səmərəli iştirakı, ikili diplom məsələlərinin həlli, xarici dillərdə ixtisasların fəaliyyəti günün tələbidir. 2022-ci ildə Naxçıvan Dövlət Universitetində IELTS qeydiyyat və imtahan mərkəzinin fəaliyyətə başlaması bu sahədə atılan uğurlu addımlardandır desək, qətiyyən yanılmarıq.

Azərbaycan ali təhsil məkanında ilk dəfə olaraq Naxçıvan Dövlət Universitetində yaradılan IELTS qeydiyyat və imtahan mərkəzinin məqsədi muxtar respublikada bu sahə üzrə ingilis dili bacarıqlarının qiymətləndirilməsi və namizədlərin beynəlxalq sertifikatla təmin olunmasıdır. Mərkəz universitetdə ingilis dilində ixtisasların artmasına və qeyri-ixtisaslarda çalışan əməkdaşların ingilis dili bacarıqlarının qiymətləndirilməsinə öz töhfəsini verməkdədir.

IELTS qeydiyyat və imtahan mərkəzinin koordinatoru, Beynəlxalq münasibətlər kafedrasının müəllimi ***Bayram Əliyev***lə söhbətimiz zamanı bildirdi ki, IELTS ingilis dili biliyini akademik səviyyədə sınağa çəkən beynəlxalq testləşdirmə sistemidir və təqribən, dünyanın 121 ölkəsində təşkil olunur. İmtahan qlobal olaraq əksər rəsmi təşkilat və prestijli universitetlər tərəfindən qəbul edilir. Ali təhsil ocağının qlobal rəqabətliliyini artıran belə bir mərkəzin Naxçıvan Dövlət Universitetində yaradılması universitetdə ingilisdilli təhsilin inkişafında xüsusi önəmə malikdir.

İmtahan qaydaları haqqında məlumat verən Bayram Əliyev söyləyir ki, IELTS imtahanı dinləmə, oxuma, yazı və danışıq olmaqla, 4 bölmədən ibarətdir. IELTS imtahanı namizədi Rəsmi IELTS İmtahan Mərkəzinə dəvət edilir. İmtahan yazılı olmaq şərti ilə dinləmə (Listening), oxuma (Reading), yazma (Writing) bölmələri eyni gündə, danışma (Speaking) bölməsi isə fərqli gündə keçirilir. Bu tarix namizədə əvvəlcədən bildirilir və bir çox hallarda danışıq imtahanı maksimum 1 həftə əvvəl və ya sonra keçirilir.

Müsahibim, həmçinin onu da qeyd edir ki, mərkəz fəaliyyətə başladığı gündən bu günə qədər 150-dən artıq namizədin iştirakı



ilə 7 imtahan keçirilib. Universitetin qlobal rəqabətliliyini artıran IELTS qeydiyyat və imtahan mərkəzi artıq universitetdə ingilisdilli təhsilin inkişafına öz töhfələrini verir. Ötən müddətdə 150-dən artıq müəllim və tələbənin IELTS sertifikatı ilə təmin olunması bunun bariz nümunəsidir.

Mərkəzdə IELTS imtahanına hazırlıq üçün kurs da fəaliyyət göstərir. Kursda IELTS imtahanlarında 7 baldan yuxarı nəticə əldə etmiş Zübeydə Zeynalova, Aytac Hüseynova, Gülnur Rzayeva kimi öz yetirmələrimiz olan müəllimlər yüksəkkeyfiyyətli dərslər keçir. Naxçıvan Dövlət Universitetinin İqtisadiyyat fakültəsinin dördüncü kurs tələbələrindən 5 nəfər imtahanlarda yüksək nəticə əldə edərək Avropanın muxtəlif ən prestijli universitetlərinə magistratura pilləsinə qəbul olunublar. Məlumat üçün qeyd edək ki, abituriyentlər də IELTS imtahanında iştirak edə bilərlər. Hazırlıq kurslarında iştirak edən abituriyentlərdən Vəli Mustafasoy 8 bal toplayaraq ən yüksək nəticəni əldə edib. Şərur rayon Kürçülü kənd tam orta məktəbinin şagirdi Mikayıl Cəfərli və Şərur şəhər 2 nömrəli tam orta məktəbin şagirdi Yunis Ağayev də imtahanda yüksək nəticə əldə edərək Amerika Birləşmiş Ştatlarının məşhur universitetlərində təhsil almaq hüququ qazanıblar. Bundan əlavə, mərkəzdə müxtəlif vaxtlarda ödənişsiz maarifləndirici tədbirlər və danışıq klubları da təşkil olunur.

Naxçıvan Dövlət Universitetində bu gün mövcud kadr potensialı, maddi-texniki bazanın verdiyi imkanlar bu sahədə uğurlu kadr hazırlığının tam mümkünlüyünü təmin edir. Universitetin qloballaşan dünyaya daha sürətli və keyfiyyətli şəkildə inteqrasiyası üçün atılan növbəti addımlardan biri də burada Amerika mərkəzli imtahan olan SAT (Scholastic Aptitude Test, yəni Akademik Qabiliyyət İmtahanı)-ın yaradılması təşəbbüsüdür.

Naxçıvan Dövlət Universitetinin İngilis dili və tərcümə kafedrasının baş müəllimi ***Aidə Cəlilzadə*** mövzuya bağlı söhbətimiz zamanı qeyd etdi ki, universitetdə yaradılması nəzərdə tutulan SAT mərkəzinin lisenziya alınması işləri artıq yekunlaşmaq üzrədir. SAT (Scholastic Assessment Test) Amerika Birləşmiş Ştatlarındakı qəbul prosesində tələb olunan standartlaşdırılmış imtahan testidir. Bu test ABŞ və Kanada universitetləri və kollecləri tərəfindən tələb edilən bir imtahan nəticəsidir və iki hissədən ibarətdir. Bu imtahan prosesi əvvəllər Amerikada təhsil almaq istəyən tələbələrin müraciət etdiyi imtahan olmasına baxmayaraq, son zamanlarda xaricdə bir çox universitetlərə qəbul zamanı da tələb olunur. Məlumat üçün qeyd edək ki, SAT universitetə qəbul müraciətləri zamanı istifadə edilən bir sınaqdır. Test, riyaziyyat və oxuma, yazma (Reading and Writing) bacarıqları olmaqla iki hissədən ibarətdir. Bu test tələbələrin ümumi bacarıqlarını ölçmək üçün hazırlanmışdır.

Müsahibim söyləyir ki, SAT mərkəzinin universitetdə yaradılması IELTS qeydiyyat və imtahan mərkəzində olduğu kimi, xaricdə təhsil almaq istəyən vətəndaşlarımıza vaxt itirmədən tam şəffaf şəraitdə imtahan verərək məqsədlərinə çatmalarını daha asan və əlçatan edəcək. Burada imtahanlara hazırlıq kursu da təşkil olunacaq. Buna görə də artıq kursda fəaliyyət göstərəcək ixtisaslı müəllimlərin seçilməsi, heyətin qurulması işi yekunlaşmaq üzrədir. Onu da qeyd edək ki, həmin müəllimlərin peşəkarlığının daha da artırılması məqsədilə müxtəlif təlimlərə də göndəriləcəkdir. Əminliklə qeyd edə bilərik ki, yaradılacaq mərkəz universitetdə xarici dil biliyi olan kadrların hazırlanması işinə öz layiqli töhfəsini verəcək.

Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin təhsil sahəsində müəyyən etmiş olduğu strategiya Naxçıvan Dövlət Universitetinin tədris proseslərində özünün əhatəliliyi ilə reallaşmaqdadır. Ölkə Prezidenti cənab İlham Əliyevin imzaladığı 2023-cü il 5 iyun tarixli Sərəncamı ilə təsdiq olunan "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda qeyd olunan Naxçıvan Dövlət Universitetinin nəzdində ingilisdilli orta məktəb yaradılması öhdəliyi də muxtar respublika ictimaiyyəti, Naxçıvan Dövlət Universitetinin kollektivi tərəfindən böyük ruh yüksəkliyi ilə qarşılanır və eyni zamanda mühüm vəzifələr irəli sürür. Şübhəsiz ki, müvafiq Sərəncam təhsil, təlim-tərbiyə işinin daha da yaxşılaşmasına, ingilisdilli peşəkar kadrların hazırlanması işinə müsbət təsir göstərəcək.

Mübaliğəsiz qeyd etmək olar ki, bu gün Naxçıvan Dövlət Universitetinin dünya təhsilinə keyfiyyətli inteqrasiyası üçün görülən işlər uzunmüddətli hədəflərin reallaşması və təhsilin daha da inkişafı üçün gələcəyə hesablanmış uğurlu addımlardır.

**Pərviz HACILI**
*Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin əməkdaşı*

# Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi münasibətilə keçirilən yaradıcılıq müsabiqələrinin qalibləri mükafatlandırılıb

*İyunun 20-də Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərinin şagirdləri arasında təşkil edilən Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş ifaçılıq, rəqs və rəsm müsabiqələrinin yekunu və qaliblərini mükafatlandırma mərasimi keçirilib.*





Tədbir iştirakçıları əvvəlcə Ulu Öndər Heydər Əliyevin Naxçıvan şəhərində ucaldılan abidəsini ziyarət edib, xatirəsini ehtiramla yad ediblər.

Sonra Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Milli Dram Teatrının foyesində müsabiqə iştirakçılarının əl işlərindən ibarət sərgiyə baxış keçirilib.

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası mədəniyyət nazirinin müavini, nazir vəzifələrini müvəqqəti icra edən Həsən Kərimov əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş dövlət uşaq siyasəti haqqında danışıb. Vurğulanıb ki, Mədəniyyət Nazirliyinin "Heydər Əliyev İli" çərçivəsində təsdiq etdiyi Tədbirlər Planına əsasən keçirilən müsabiqənin məqsədi muxtar respublikada yaşayan istedadlı gənc və yeniyetmələri aşkar edib üzə çıxarmaq, yaradıcılıq potensialını inkişaf etdirmək, onlara dövlət qayğısı göstərməkdir. Ümumilikdə, 20 nominasiya üzrə keçirilən müsabiqəyə 26 uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəbinin 1000-ə yaxın şagirdi qoşulub.

Həsən Kərimov müsabiqənin təşkilində əməyi olan bütün əməkdaşlara təşəkkürünü bildirib, iştirakçılara uğurlar arzulayıb.

Sonra tədbirin mükafatlandırma mərasimi olub. Mükafatlandırma mərasimində Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdir müavini Tural Rzayev, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti Aparatının Humanitar və sosial məsələlər şöbəsinin müdiri Sevinc Cabbarova və Naxçıvan Musiqi Kollecinin direktoru Məhəbbət Babayeva da iştirak ediblər. Mərasimdə qaliblərlə yanaşı, qalib gələn iştirakçıların sayına görə fərqləndiyinə, iştirakçıları yüksək peşəkarlıqla müşayiət etdiyinə, müsabiqənin təşkilindəki fəallıqlarına görə bir sıra uşaq musiqi və incəsənət məktəbi və müəllimləri Fəxri fərman və diplomla təltif edilib.

Həmçinin müsabiqənin şərtlərinə əsasən Naxçıvan Şəhər Uşaq Musiqi və İncəsənət Məktəbi qalib gələn iştirakçıların sayına görə fərqləndiyi üçün "İlin məktəbi" elan edilib və diplomla təltif olunub. Sonda müsabiqə zamanı münsiflər heyətinin üzvü kimi yüksək peşəkarlıq və obyektivlik nümayiş etdirmiş muxtar respublikanın tanınmış mədəniyyət və incəsənət nümayəndələrinə təşəkkürnamələr təqdim olunub.

Tədbirin bədii hissəsində müsabiqə qaliblərinin ifasında konsert proqramı təqdim edilib. Rəngarəng musiqi nömrələri ilə tamaşaçı qarşısına çıxan qaliblər izləyənlərdə xoş ovqat yaradıb. Konsert-müsabiqə qrup rəqsləri nominasiyası üzrə 1-ci yerin qalibi, Naxçıvan Şəhər Uşaq Musiqi və İncəsənət Məktəbinin rəqs kollektivinin təqdimatında "Zəfər rəqsi" ilə sona çatıb.

*Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti*

İstehsal müəssisələrimiz

# Büllur kimi saflığı ilə yurdumuza həyat verən Tanrı neməti – ÇINQILLI




Ətrafa hakim kəsilmiş allı-güllü təbiətə həyat verən Günəşin al şəfəqlərinə, uzaqdan bizə tamaşa edən başıqarlı, vüqarlı dağlara, uzun illər el igidlərinin at oynadıb, ərlik göstərdiyi yaylaqları seyr etdiyi bir zamanda verdiyim sual onu sanki yuxudan oyatdı: – ***İbrahim baba***, bu yerlərin insanları niyə bu qədər gümrah, xoş ovqatlı, necə deyərlər, həyat doludur?

– Bu lap əvvəldən belə olub, mənim balam, Uca Yaradanın verdiyi hər bir nemət insan üçün faydalıdır, xeyirlidir. Lakin dağ havasının, dağ suyunun, bu yerlərdə yetişib boy verən bitkilərin, bir sözlə, süfrəmizə gətirdiyimiz bütün nemətlərin insan sağlamlığına faydası tamam başqadır. Elə bunun nəticəsidir ki, ata yurdumuz Naxçıvanın bir çox dağ kəndlərində, Biçənəkdən başlamış Keçili, Külüs, eləcə də muxtar diyarımızın bir neçə digər yaşayış məskənlərində insan ömrü nə az, nə çox 90 ildən artıq davam edir. Bu yerlərdə hansı kəndə qonaq olsanız, orada 70-80, hətta 90 yaşında ağbirçək, ağsaqqalları həyət-bacalarında iş-güc ardınca qaçan görəcəksiniz. Səbəbini də soruşsanız, onlar da, yəqin ki, mənim kimi bu dağların saf havasının, yer altından qaynayıb axan büllur kimi dumduru bulaqların və bunun kimi min bir adda, əvəzsiz dadda nemətlərin sirridir, söyləyəcəklər…

Bu yaxınlarda istehsalını bərpa etmiş təbii süfrə suyu istehsalı ilə məşğul olan "Çınqıllı" Zavodundan reportaj hazırlamaq məqsədilə çıxmışdıq yola. Elə yaşı 70-i ötmüş, uzun illər Keçili kənd tam orta məktəbində riyaziyyat müəllimi işləmiş İbrahim Səfərovla da burada həmsöhbət olduq, söhbətimizə də bu yerlərin saf havasının, qəlbə şəfqət verən təmiz suyunun, dadı dillər əzbəri olan kənd nemətlərinin sehrini izah etməklə başladıq. İlin bu vədəsində Naxçıvan-Şahbuz magistral yolu boyunca uzanan bu mənzərəli yerlərdən ötən hər kəs buraları çox yaxşı tanıyır. Naxçıvançay boyunca üzüyuxarı qalxan sıra dağlar, bu dağların ətəyində qərar tutmuş yaşayış ünvanları, kəndlər, habelə çay kənarlarında təbiətin xoş rayihəsinə qoşulan arıların zümzüməsi, örüşdən qayıdan qoyun-quzu səsi, sözün əsl mənasında, insanı təbiət vurğunu, gözəllik aşiqi edir. Çox keçmir ki, gəlib ünvana yetişirik. Keçili kəndinin yaşılörtüklü dağları ilə ana torpaqdan halal ruzisini qazanan zəhmət adamlarının bağ-bağatlarının tən ortasında yerləşir bu zavod. Təbii sular muzeyi olan Naxçıvan torpağında "Çınqıllı" suyunun adı, şöhrəti ən az "Badamlı", "Sirab", "Darıdağ" qədər çox çəkilir. Yenicə fəaliyyətini bərpa etməsinə baxmayaraq, artıq muxtar respublikamız başda olmaqla ölkənin bir çox yerlərinə, paytaxt Bakıya və ətraf rayonlarına ixrac olunur, bu proses isə sifariş üsulu ilə həyata keçirilir.

Zavodun fəaliyyəti və iş prinsipi barədə bizə ətraflı məlumatı istehsal işi barədə mütəxəssis ***Elvin Alrzayev*** verir. Müsahibim ilk əvvəl uzun illər bu sahədə qazandığı təcrübəyə istinad edərək təbii bulaqlarımızın, mineral suların faydası barədə danışır: – Naxçıvan torpağının hər daşı, qayası başdan-başa təbii ne-



mətləri ilə zəngindir. Lap qədimlərdən bu yerlərdə mövcud olan həyat məhz təbiətin yetirdiyi nemətlərlə varlığını sürdürüb. Nənələrimizdən, babalarımızdan eşitmişəm ki, ötən əsrin ən sərt dövrlərində, habelə İkinci Dünya müharibəsində aclığın, qıtlığın verdiyi əziyyətlərdən insanlar təbiətin ağuşuna sığınmaqla xilas ola biliblər. Buna görə bu gün də Vətənimizin bizə ərməğan verdiyi hər bir neməti qorumağa, qədrini bilməyə çalışırıq. Axı bunlar həm də gələcək nəsillərin sərvətidir. Eləcə də həyatımızın, sağlamlığımızın bir parçası olan mineral sular... Çünki bu yurdun bərəkətli torpağından qaynayıb-daşan hər bir su insan ömrünün təminatçısıdır.

Müsahibimizin bu sözlərindən yola çıxaraq qeyd etməliyik ki, tədqiqatçıların fikrincə, mineral bulaqların formalaşmasında relyefin, çay şəbəkəsinin, geoloji mühitin, iqlimin böyük əhəmiyyəti olub. Alimlər həm də bu qənaətdədirlər ki, bu suların yüksək kimyəvi-balneoloji xüsusiyyətlərə malik olmalarında onların müxtəlif tərkibli və yaşlı çöküntülərdən çıxması önəmli rol oynayır. Bu halda bulaq suları yeraltı süxurların bütün müsbət keyfiyyətlərini özləri ilə bərabər yerin səthinə çıxarırlar. Nəzərə alsaq ki, ərazidə ən qədim su süxurların yaşı 400 milyon illə 500-700 min arasında dəyişir, onda dediklərimizi xırdalamağa da bir o qədər ehtiyac olmur.

Müsahibim söhbətinə zavodun iş prinsipi barədə ətraflı məlumat verməklə davam etdi: – Müəssisə 2007-ci ildə yaradılsa da, 2009-cu ildən fəaliyyətə başlayıb, lakin sonradan istehsal prosesi dayandırılmalı olub. Son aylarda muxtar respublikada sosial-iqtisadi inkişaf tədbirləri, sahibkarlığın inkişafına dövlət dəstəyinin artırılması istiqamətində görülən işlər çərçivəsində yeni istehsal müəssisələri yaradılmaqla yanaşı, fəaliyyətini dayandırmış müəssisələrin bərpası prosesi də uğurla həyata keçirilir. May ayının 13-də Naxçıvan



Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəflinin də iştirakı ilə "Çınqıllı" su istehsalı müəssisəsinin fəaliyyətinin bərpası da buna əyani misal ola bilər.Qabaqcıl ölkələrin istehsalı olan avadanlıqların quraşdırıldığı müəssisənin istehsal gücü gündəlik 42 tondur. Burada 4 istehsal xəttində 8 çeşiddə, 2 növdə – şüşə və plastik qablarda təbii bulaq suyu istehsal olunur. Yüksək keyfiyyətlə qablaşdırılan məhsullar muxtar respublikanın satış və xidmət obyektlərinə, eləcə də ölkə bazarlarına çıxarılır. Müəssisədə Keçili kəndindən 10 sakin işlə təmin olunub. İlin sonuna işçi sayı 30 nəfərə çatdırılacaq. Bununla yanaşı, iki istehsal sahəsindən ibarət olan zavodda istehsal prosesi mürəkkəb struktura əsaslanır. Belə ki, paslanmayan borular vasitəsilə müəssisəyə gətirilən su ionlaşdırıldıqdan sonra sudoldurucu aparata verilir. Həmin aparatda plastmas butulkalar ionlaşmış su ilə yuyulur, doldurulur, bağlanır, xüsusi ötürücü vasitəsilə etiket aparatına buraxılır. Etiketləndikdən sonra tarixvuran aparata keçir. İstehsal və istifadə tarixi vurulduqdan sonra sonuncu qablaşdırma aparatına aparılır. Buradan isə hazır vəziyyətdə anbara yığılır. Hazırda burada saatda 3000 butulka təbii bulaq suyu istehsal edilir. Bununla belə, ən yüksək səviyyədə təchiz olunmuş laboratoriyalarda aparılmış analizlərin nəticələrinə görə, "Çınqıllı" suyundakı mikroelementlər və minerallar həzmə çox müsbət təsir edir, suyun yüngüllüyü, codluğunun azlığı orqanizm tərəfindən yaxşı mənimsənilməsinə səbəb olur və ümumi metabolizmə, fiziki-kimyəvi proseslərə yüksək təsir göstərir. Onu da qeyd edim ki, bir çox təbii bulaq sularından fərqli olaraq "Çınqıllı" xüsusi filtirləmə yolundan keçmir, yalnız sterilizə olunaraq istehsala hazır vəziyyətə gətirilir. Bu onun tərkibinin təmiz, saf olması ilə bağlıdır.

Müsahibimizin sözlərinə görə, "Çınqıllı" suyu bir neçə ölçülü – 0,5 və 1 litrlik butulkalara, həmçinin 5, 10, 17, 19, 20 litrlik qablara doldurulur. Müəssisənin məhsulları son vaxtlara qədər ancaq muxtar respublikanın ticarət obyektlərinə göndərilirdi. İndi isə sifariş əsasında paytaxt Bakıya göndərilməsinə də başlanılıb. Bu da onu deməyə əsas verir ki, muxtar respublikada sahibkarlıq fəaliyyəti inkişaf edir və qısa zaman ərzində diyarımızın sevilib-seçilən məhsulları ölkə hüdudlarından kənarda da öz layiqli yerini alacaq.

Söhbət zamanı Əməkdar jurnalist, mərhum tarixçi-alim Məmməd Məmmədovun "Təbii bulaqlar muzeyi – Naxçıvan" başlıqlı məqaləsində yazdığı bu fikirləri xatırlayıram: "Geologiya-minerologiya elmləri ilə məşğul olan alimlərimiz bu diyarı "təbii bulaqlar muzeyi" adlandırıblar. Hələlik bu "muzeyin" 250-dən artıq eksponatı aşkar olunub. Onların gündəlik debütü də az deyil. Hesablamalara görə, gün ərzində regiondakı mineral su mənbələri yer səthinə, təxminən, 24 milyon litr su axıdır. Onların da çox az bir hissəsindən istifadə olunur. Onu da deyək ki, hər damlasında həyat nümunəsi olan bu mineral bulaqlar (xüsusi ilə müalicə əhəmiyyətli sular) adamlara qədim zamanlardan məlum olub. Yerli əhali həmişə dirilik, şəfa suyu olan bu bulaqlardan bəhrələnib, onların müalicə qüdrətinə "Tanrı ocağı", – deyərək möhkəm inam bəsləyib. Elə o vaxtlardan da həmin mənbələrin ətraflarında yaşayış məskənləri salınıb. Sirab kəndi yaxınlığındakı Daşqala mağarasını buna misal göstərmək olar. Deyilənə görə, burada ibtidai icma dövrünün adamları yaşayıblar. Badamlı kəndi yaxınlığındakı nekropol isə orta əsrlərə aid arxeoloji abidədir. Naxçıvan şəhərinin ilkin adları olan "Naksuana" və "Naşəva" sözləri də öz mənalarını bu "tanrı ocağı"ndan götürüblər. Sən demə, Naşəva farsca "xoş su" mənasını verdiyi kimi, Naksuana da türk dillərində "xeyirxah su yeri" deməkdir. Tarixən də Naxçıvan şəhərinin ətrafı həmişə mineral su yataqları ilə zəngin olub".

Müəssisə ilə yaxından tanış olduqdan sonra bu işdə təcrübə qazanmış bir neçə zəhmətsevərlə həmsöhbət oluram. Adətən, zavod və fabrik işi kimi çətin, məsuliyyət tələb edən işlərdə daim kişilər çalışıb. Lakin bu müəssisədə kişilərlə bərabər qadınları da çiyin-çiyinə iş başında görmək insanı sevindirir. Elə həmin xanımlardan biridir Keçili kənd sakini ***Sevinc Vəliyeva.*** O artıq 10 ilə yaxındır ki, ömrünü bu işlərə həsr edib. Gününün böyük bir hissəsini zəhmət dolu bir işdə keçirsə də, yorulmadığını deyir. Bunu onun gümrah və şux əhvali-ruhiyyəsindən də hiss etmək mümkündür. Halal zəhmət adamının söylədiklərindən: – Artıq on ilə yaxındır ki, öz ruzimi bu müəssisədən əldə edirəm. İşimiz nə qədər zəhmətli olsa da, şövqlə çalışırıq. Çünki burada kəndimizin bir neçə mehriban, gülərüz insanları ilə birgə çalışırıq. İşimiz də yaxşıdır. Düzdür, bəzən elə gün olur ki, sifariş çox olduqda kollektivliklə yoruluruq, amma evimizə gedib bir stəkan çay



içib, öz halal çörəyimizi yeyərkən kimlərəsə həyat cövhəri olan bulaq suyundan çatdırıldığını fikirləşdikdə yorğunluğumuzu tamam unuduruq. Bizim məqsədimiz onun öhdəsindən layiqincə gəlməkdir. Hər işin çətinliyi var, amma insan əməyinin bəhrəsini gördükdə tamam fərqli hisslər keçirir. Bu gün bu müəssisədə çalışan hər kəs marketlərdə, mağazalarda satılan "Çınqıllı" sularını gördükdə sanki əməyinin ən gözəl bəhrəsini dadmış olur. Əgər bu gün bir vətəndaş suyun keyfiyyətindən, təmizliyindən, qabların səliqə-sahmanından razılıq edirsə, bu zəhmətimizin ən gözəl qarşılığıdır. Buna az da olsa, nail ola bilmişiksə, böyük xoşbəxtlikdir.

5,3 min kvadrat kilometr ərazisi olan Naxçıvan torpağı ölkə ərazisinin cəmi 6,4 faizini təşkil etsə də, iqlim və relyefi, flora və faunası, təbii sərvətləri ilə zəngindir. İqlimi quru və kontinental, relyefi, əsasən, dağlıq və dağətəyi ərazidən ibarət bu diyarın flora və faunası ilk baxışda, bəlkə də, yoxsul görünə bilər. Əslində isə ərazi cəhətdən bir o qədər böyük olmayan bu region Yerin təkindəki və üzərindəki sərvətlərinin bolluğu ilə dünyada şöhrət qazanıb. Fikrimizi təsdiqləmək üçün Azərbaycan elminin görkəmli nümayəndələrindən biri olan akademik Mirəli Qaşqayın dağ-mədən ehtiyatlarına görə Naxçıvanı "Azərbaycanın Uralı" adlandırmasını xatırlatmaq kifayətdir. Akademik Naxçıvanı, həmçinin təbii sərvətlərinin zənginliyinə görə Vətənimizin "şah damarı" adlandırıb. Təbii ki, muxtar diyarımızı belə adlarla məşhurlaşdıran, adını dillər əzbəri edən ziyalılarımızın, alimlərin qələminin mürəkkəbi yox, ana torpağın, Uca Yaradanın bu ellərə bəxş etdiyi sonsuz nemətləridir. Elə 3 kilometr hündürlükdə dağların qoynuna sığınan "Çınqıllı" suyu kimi.

*İçin bu diyarın ürəkləri sərinlədib, ruhları təzələyən təbii sularından, "Badamlı"sından, "Sirab"ından, "Darıdağ"ından. İçin ki, ruhunuz saf, canınız sağlam, ömrünüz uzun olsun.*

**Məcid RƏŞADƏTOĞLU**

## Fərdi sərgi açılıb



Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyində gənc rəssam Nigar Mustafazadənin "33-cü qatda duyğular" adlı sərgisi açılıb. Sərgidə Rəssamlar Birliyinin sədri, Milli Məclisin deputatı, Azərbaycan Respublikasının Əməkdar rəssamı Ülviyyə Həmzəyeva çıxışında gənc rəssamın fəaliyyətini yüksək qiymətləndirib. Vurğulanıb ki, bu gün gənclərin öz bacarıqlarını nümayiş etdirməsi onlar üçün yaradılan geniş imkanların təzahürüdür. Ülviyyə Həmzəyeva gənc rəssamı ilk fərdi sərgisi münasibətilə təbrik edib, yaradıcılığında uğurlar arzulayıb.

Tədbirdə çıxış edən Əməkdar rəssamlardan Telman Abidinov və hərbi hissə komandirinin müavini İntiqam Ağasıyev rəssamın yaradıcılığı haqqında müsbət fikirlər söyləyərək fəaliyyətində uğurlar arzu ediblər.

Sərgidə rəngkarlıq və qrafika üslubunda işlənmiş kompozisiyalardan ibarət 40-a yaxın rəsm əsəri sərgilənib. Sonda gənc rəssama Naxçıvan Rəssamlar Birliyinin üzvlük vəsiqəsi təqdim olunub.

Qeyd edək ki, sərgi Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının məzunu olan, müxtəlif illərdə "Çaşıoğlu", "Sehrli dünya" və "Təhsil" jurnallarında fəaliyyət göstərən Nigar Mustafazadənin ilk fərdi sərgisidir.

Sonda tədbir iştirakçıları sərgidə nümayiş olunan rəsm əsərləri ilə tanış olublar.

Sərgi üç gün davam edəcək.

**Aysel YUSİFZADƏ**

## Naxçıvanlı turizmçi təlim düşərgəsində iştirak edib



Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyinin dəstəyi ilə ölkəmizdəki təbiət və dağ bələdçilərinin peşəkarlığının artırılması məqsədilə təlim düşərgələri təşkil olunmuşdur. Şəki rayonunda həyata keçirilən layihənin məqsədi 2500 metr hündürlüyə qədər olan ərazilərdə gəzinti və düşərgə təşkil edən bələdçilərdə ən zəruri 6 mövzu üzrə baza bilikləri formalaşdırmaqdan ibarət idi. Layihə düşərgələrin hər birində 18 iştirakçı olmaqla həyata keçirilib.

Bakı, Naxçıvan, Sumqayıt, Quba, Yardımlı, Zaqatala, Oğuz, Qəbələ, Şəki və Lerik bölgələrindən, ümumilikdə, 36 bələdçini əhatə edən düşərgədə 6 mövzu üzrə peşəkar mütəxəssislər tərəfindən həm nəzəri, həm də praktiki təlimlər keçirilmişdir.

Təlimlər "Təbiətdə ilk yardım və evakuasiya", "Zəhərli ilanlar, həşəratlar və onlarla davranış qaydaları", "Quş müşahidəsi və bu sahənin turizm perspektivləri", "Azərbaycan florasına xas zəhərli və yeməli göbələklər və onları fərqləndirmə üsulları", "Xəritələr və səmtimüəyyənetmə", "Təbitədə bələdçilik psixologiyası və təməl dağçılıq" mövzularını əhatə etmişdir.

Təlimlərdə Naxçıvan Muxtar Respublikası Turizm Departamentinin əməkdaşı Orxan Cəfərov da iştirak etmiş və ən yüksək nəticəni göstərərək sertifikatla təltif olunmuşdur.

**Xəbərlər şöbəsi**

*Əfsanəyə dönən ömürlər*

## Vətən əcdadımızın mədfənidir, Vətən övladımızın məskənidir...



*Ən böyük arzusu, amalı Vətənin məşəqqətli günlərində ona layiqli övlad olmaq, əzəli və əbədi Azərbaycan torpağı olan Qarabağın azadlığı uğrunda şəhadət zirvəsinə yüksəlmək idi kapitan Aşur Cəmiyevin. Elə özünün təbirincə desək: “...Vətən sağ olsun...Ən gözəl ölümdür şəhidlik, ən gözəl ölüm”.*

Cəmiyev Aşur Bəybala oğlu 18 iyun 1989-cu ildə Naxçıvan Muxtar Respublikası Şahbuz rayonunun Külüs kəndində anadan olmuşdu. Sonra ailəsi ilə birgə Naxçıvan şəhərinə köçən Aşur orta təhsilini də elə burada almışdı. Bizim Aşurla ilk tanışlığımız da eyni məhəllədə qalmağımızdan, şəxsi münasibətimiz isə eyni orta məktəbdə təhsil almağımızdan başlamışdı. Düzdür, o məndən yaşca böyük idi. Lakin Aşuru tanıyan hər kəs etiraf edər ki, o, böyüklə böyük, kiçiklə kiçik olmağı, hamı ilə şirin dil tapmağı yaxşı bacarırdı. Təhsilinin qalan hissəsini 2003-cü ildən Naxçıvan şəhərindəki Heydər Əliyev adına Hərbi Liseydə davam etdirən Aşur sanki hələ hərbi liseyə daxil olarkən ailəsinin, bütün Azərbaycanın fəxri olacağını bilirmiş.

Liseydə oxuduğu müddətdə yüksək fiziki hazırlığa, nizam-intizama malik olan Aşur sərgilədiyi döyüş ruhu və vətənpərvərliyi ilə hər zaman seçilirmiş. Liseyi uğurla bitirərək Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyasına qəbul olub. Təhsilini bitirdikdən sonra Lənkəran sərhəd dəstəsinə təyinat alır. Qısa zaman kəsiyində ölkəmizin cənub sərhədlərinin təhlükəsizliyinin təmin olunması istiqamətində bir sıra uğurlu əməliyyatlarda iştirak edərək şücaətinə görə xüsusi fərqlənir. Xidməti dövründə “Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi”, “Azərbaycan Sərhəd Mühafizəsinin 95 illiyi” və “Azərbaycan Sərhəd Mühafizəsinin 100 illiyi” yubiley medalları ilə mükafatlandırılması da təsadüfi deyil.

Vətənə şərəfli xidmət, uğrunda can vermək, qan tökmək amalı onu hər ötən gün ən böyük arzusuna çatdırmaqda idi. Məlum olduğu kimi, 27 sentyabr 2020-ci ildə Ermənistanın növbəti təxribatı və hərbi təcavüzünə cavab olaraq torpaqlarımızın işğaldan qurtarılması, işğalçı ölkənin sülhə məcbur edilməsi, məcburi köçkünlərin öz doğma torpaqlarına qayıtması və tarixi ədalətin bərpası naminə Vətən müharibəsinə, haqq savaşına başlanıldı. Rəşadətli Azərbaycan Ordusu ölkə Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə güclü səbir, təmkin, ruh yüksəkliyi və peşəkarlıq nümayiş etdirərək 30 illik Vətən həsrətimizə 44 gündə son qoydu. Əminliklə demək olar ki, şanlı tariximizə qızıl hərflərlə həkk olan Vətən müharibəsi Azərbaycan xalqının mübarizliyini, yenilməzliyini və bir yumruq ətrafında necə sıx, həmrəy olduğunu dosta da, düşmənə də açıq bəyan etdi.

Haqq savaşının başladığı ilk gündən “Şəhidlikdən uca zirvə yoxdur”, – deyən Aşur Cəmiyev Vətənin bu taleyüklü günlərində hər bir azərbaycanlı kimi kənarda dayanmağı özünə rəva bilmir, könüllü olaraq ərizə yazıb döyüşlərə qatılmaq istəyir. Dəfələrlə ərizəsinin geri qaytarılmasına baxmayaraq, o, inadından geri dönmür və nəhayət, döyüşlərə qatılır.

Döyüş yoldaşlarının dediklərinə görə, təlimlərdə topladığı yüksək təcrübə və taktika hesabına düşmənin ön xətlərdəki istehkamlarını uğurla yarmağa müvəffəq olan kapitan Cəmiyev müharibənin başladığı ilk gündən müxtəlif döyüş zonalarının fəal iştirakçısına çevrilib. Hərb sənətinin sirlərini dərindən bilən və müxtəlif silah növlərindən məharətlə istifadə etməyi bacaran Aşur olduğu hər mövqedə öndə getməyə tələsir, qələbə əzmi ilə vuruşur, eləcə də döyüş yoldaşlarına bu minvalla mənəvi dəstək göstərirdi. Bəlkə də, elə bu tələskənlik onu Tanrı dərgahına, əbədiyyət arzusuna daha da tez qovuşdurdu. O, heç vaxt şəxsi istəklərini, maraqlarını ömrünü uğrunda fəda etdiyi Vətənin mənafeyindən üstün tutmadı, əsl insanlıq, vətənpərvərlik nümunəsi sərgilədi. Məhz buna görədir ki, bu gün Vətən deyəndə Aşurlar, Aşur deyəndə isə bütöv Vətən başa düşülür.

Müharibənin hər ötən günü suverenliyimizin təcəssümü olan bayraq, Vətən sevgisi, milli mənliyi onun qələbə əzmini daha da alovlandırmaqda idi. Kapitan Cəmiyev Zəngilana, Qubadlıya, ən çox da Şuşa qalasına bayraq sancmadan şəhid olmaq istəmirdi. Vətəninin işığı, elinin, obasının nuru olan Aşur Xudafərinə, Zəngilana bayraq sancan oğullar sırasında olmağın qürurunu ruhən yaşadı, eyni zamanda 30 illik hicrandan sonra sinəsi buza dönmüş arzularımızın donunu öz qaynar qanı ilə açdı.

Tanrı Aşura hündür boy, xoş sima, ürəyinə cəsarət, ən önəmlisi qoluna qüvvət və səbatlılıq vermişdi. Belə ki, Vətən ağrısını, acısını öz yarasından üstün tutan, azad edilən hər qarış torpağımızı öz yarasına məlhəm bilən kapitan Cəmiyev oktyabrın 6-sı gedən döyüşlərdə yaralansa da, günlərlə bunu hər kəsdən gizlətdi. Qubadlı istiqamətində gedən döyüşlərdə şəhadət şərbətini içərək gözlərini əbədi olaraq yumdu.

Aşur şəhid olduqdan sonra cəbhədəki silah yoldaşları ilə danışan ailəsinə onların sözü belə olur: “Sağ olun ki, bu xalq üçün Aşur kimi oğul yetişdirmisiniz. Onun hər atəşi düşmənə bir can bahasına başa gəlirdi. Düşmənin xeyli sayda həm canlı qüvvəsini, həm də texnikasını məhv edib. Haqqında danışmaq çox çətindir...Var olsun, onu yetirən torpaq, böyüdən ata-ana...”

Nə qədər məğrur olsa da, dağlar bulaqsız, çaylar isə selsiz olmaz, – deyib müdriklərimiz. Sinəsi dağlı, göz yaşı bulaq kimi süzən şəhidin bacısı – Ayşən xanım deyir ki, qardaşımın ad günü 18 iyuna – Azərbaycan Respublikasının Milli Qəhrəmanı Mübariz İbrahimovun əbədiyyətə qovuşduğu günə təsadüf edir. Məhz buna görə də qardaşım qəhrəmanımızın şəhid olduğu gündən bəri doğum gününü heç vaxt qeyd etməz, “Mübarizin qisası haçan alınar, o zaman da qeyd edərik”, – deyirdi. Qürurluyuq, çünki bu gün şəhidimiz həm də başqa bir arzusuna çatıb. Polad, Mübariz kimi igidlərimizin timsalında bütün şəhidlərimizin qisası alındı.

Sevindirici haldır ki, Vətən uğrunda göstərilən misilsiz qəhrəmanlıqlar dövlətimiz tərəfindən hər zaman yüksək qiymətləndirilir. Belə ki, Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etmiş, düşmənin canlı qüvvəsinin və döyüş texnikasının məhv edilməsində rəşadət göstərmişdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamlarına əsasən Aşur Cəmiyev ölümündən sonra 3-cü dərəcəli “Vətənə xidmətə görə” ordeni, Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılaraq hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün “Vətən uğrunda” medalı, Zəngilan rayonunun işğaldan azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak edərək şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə “Zəngilanın azad olunmasına görə” medalı ilə təltif edilib.

Qürurlu haldır ki, 30 ilə yaxın müvəqqəti yaşayış yerlərinə sığınan məcburi köçkünlərimiz bu adı üstlərindən əbədi götürməkdədirlər. Onlar artıq vaxtilə yurdlarında yuvasız qalan vətəndaşlar deyil, bütövlüyü təmin edilmiş müstəqil ölkənin azad vətəndaşıdırlar. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin də dediyi kimi: ***“Məcburi köçkünlərin öz doğma torpaqlarına, əsrlərboyu xalqımızın yaşadığı ərazilərə geri qaytarılması təcavüzkar və işğalçı Ermənistana qarşı aparılan mübarizənin və əldə olunan möhtəşəm qələbənin əsas məqsədlərindəndir. Məhz buna görə də məcburi köçkünlər öz doğma yurdlarına qayıtmaq istəyirlər və onlar bunu ölkə rəhbərliyinə, eləcə də Dövlət Komitəsinə son dövrlərdə yüzlərlə edilən müraciətlərində nəinki qayıtmaq, həmçinin işğaldan azad olunmuş torpaqlarımızda quruculuq işlərində fəal iştirak etmək əzmində olduqlarını daim bildirirlər”.***

Xalqımız bu gününü Aşur kimi oğullara borcludur. Bu gün elinə-obasına dönən hər bir sakin Vətənin bütövlüyü uğrunda canından keçən igidləri minnətdarlıq hissi ilə yada salır. Onların ruhu qarşısında baş əyir.

**Arif BAYRAMOV**
***Naxçıvan Regional Miqrasiya Baş İdarəsinin əməkdaşı***

## Yay Futbol Düşərgəsi start götürüb

*Ümummilli Lider Heydər Əliyevin 100 illiyi ilə əlaqədar Futbolun İnkişaf Fondu tərəfindən 2023-cü il 19-25 iyun tarixlərdə Uzunoba Təlim-Məşq İdman Kompleksində təşkil edilən qazi, aztəminatlı ailələrdən olan 10-12 yaş arası 20 qız və 20 oğlan olmaqla, ümumilikdə, 40 uşaq üçün təşkil edilən futbol düşərgəsi start götürüb.*



Keçiriləcək 7 günlük Yay düşərgəsində müxtəlif mövzuları əhatə edən fərdi inkişaf təlimləri, ekskursiyalar, maraqlı idman oyunları, futbol dərsləri, eyni zamanda Ulu Öndər Heydər Əliyevin həyatı, idmana və gəncliyə qayğısı barədə məlumat veriləcək. Qeyd olunan uşaqların valideynləri üçün də mütəxəssislər tərəfindən təlim həyata keçiriləcək.

Yay Futbol Düşərgəsinin ilk günündə fondun icraçı direktoru Tural Piriyev, Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin aparat rəhbəri Eltun Həziyev, Gənclər və İdman Nazirliyinin əməkdaşı Ülvi Əliyev, Təhsil Nazirliyinin əməkdaşı Elxan Babayev və Araz-Naxçıvan Peşəkar Futbol Komandasının sədr müavini Sakit Rzayev çıxış edərək respublikada həyata keçirilən idman siyasətindən, təşkil edilən Yay düşərgəsinin, eləcə də futbolun əhəmiyyətindən danışıblar.

Yay Futbol Düşərgəsi UNICEF-in təlimçisi, psixoloq Aynur Bünyadova tərəfindən həyata keçirilən təlimdə stresin idarə olunması, emosional tənzimləmə, özünüqiymətləndirmə, müsbət düşüncəyə aid mövzuya bağlı filmin nümayişi və filmin müzakirəsi ilə əlaqədar diskussiya xarakterli söhbət aparılıb. Sonda futbol nəzəriyyəsi, bu oyunun həyata keçirilməsi barədə uşaqların marağına səbəb olan söhbətdən sonra futbol oyunu ilə Yay düşərgəsinin ilk günü başa çatıb.

Yay Futbol Düşərgəsində uşaqların qida və təhlükəsizliyini təmin etmək üçün də hər cür şərait yaradılıb.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

## Ölkə üzrə ən güclülərin müəyyənləşdiyi yarışdan 29 medal

*“Sərhədçi” İdman Olimpiya Mərkəzində MMA, pankration və qrepplinq üzrə Azərbaycan çempionatı və birinciliyi keçirilib. Budəfəki yarış kütləviliyi ilə fərqlənib. Belə ki, üç gün davam edən yarışlarda 90-a yaxın komandadan, ümumilikdə, 1000-dən çox idmançı medallar uğrunda mübarizə aparıb.*

Muxtar respublikanı Naxçıvan Kikboksinq Federasiyasının sədri Xəyal Abdullayevin rəhbərliyi ilə “Turan” Döyüş Klubunun 30 idmançısı təmsil edib. Təmsilçilərimiz üçün uğurlu keçən yarışda 11-i qızıl, 4-ü gümüş və 14-ü bürünc olmaqla, ümumilikdə, 29 medal qazanılıb.

İdmançılarımızdan ən yaxşı nəticə Nurəddin Əliyevə məxsusdur. O, 14-15 yaşlılar arasında hər üç növdə çempion olub. Röya Abdullayeva eyni yaş kateqoriyasında qızların MMA və qrepplinq yarışlarında birinci olub. Fidan Paşayeva, Fərid Oruczadə, Yaqub Hacıyev, İsmayıl Hüseynzadə, Əli Nəsrullayev və Turqut Abdullayev də çempionluq sevinci yaşayıb, eləcə də digər idmançılarımız birgə müxtəlif əyarlı medallar əldə ediblər.



Əlavə edək ki, qrepplinq-gi növü üzrə 21-dən yuxarı yaş kateqoriyasında mübarizə aparan naxçıvanlı idmançı Fərid Əliyev 130 kiloqram çəki dərəcəsində birinci olub.

## İki boksçumuz mükafatçılar sırasında



*Kadetlər (məktəblilər) arasında zona birinciliklərinin final mərhələsi başa çatıb. Bu mərhələdə bölgələrdəki seçmə yarışların yekununa əsasən 52 komandadan 227 idmançı iştirak edib.*

6 gün davam edən turnirdə 17 çəki dərəcəsi üzrə mükafatçılar müəyyənləşib. Muxtar respublikanı yarışda Naxçıvan Boks Federasiyasının idmançıları təmsil ediblər. Təmsilçilərimizdən ikisi mükafatçılar sırasına düşüb. Yalnız final görüşündə məğlubiyyətlə üzləşən Haqverdi Həsənov 57 kiloqram çəki dərəcəsində gümüş medal mükafatçısı olub. Fikrət Abbaslı isə 44 kiloqram çəki dərəcəsində bürünc medala sahib çıxıb.

## Paralimpiyaçımız ölkə ikincisi olub



Bakı şəhərində para-stolüstü tennis üzrə Azərbaycan çempionatı keçirilib. Çempionatda respublikanın 8 regionundan 20-dən çox idmançı iştirak edib. İdmançılar individual və komanda yarışlarında mübarizə aparıblar.

Çempionatda iştirak edən Naxçıvan Paralimpiya Federasiyasının idmançısı, Culfa rayon sakini Camal Həsənov uğurlu nəticələrə imza atıb. O həm fərdi, həm də komanda yarışlarında ikinci olmaqla gümüş medallara sahib çıxıb.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

### *İtmişdir*

Şərur rayonunun Aşağı Yaycı kənd sakini Məmmədov Elman Rəhman oğlunun adına olan JN-273$^{A}$ inventar nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Şərur rayonunun Aşağı Yaycı kənd sakini Məmmədov Eyvaz Çərkəz oğlunun adına olan JN-272$^{A}$ inventar nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Şərur rayonunun Aşağı Yaycı kəndində yaşamış Məmmədova Surə Müseyib qızının adına olan JN-180$^{A}$ inventar nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Şərur rayonunun Aşağı Yaycı kənd sakini Məmmədov Knyaz Çərkəz oğlunun adına olan JN-597$^{A}$ inventar nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Orucov Amil Niftalı oğlunun adına olan avtomobilin texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Babayeva Jalə Arif qızının adına olan VÖEN itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Ramiyyə Əkbərova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 388